# Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi



**Mayın 16-da Milli Məclisin inzibati binasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi nümayiş etdirilib. Parlamentin ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan xarici ölkələrin nümayəndələri yubiley iclasından əvvəl sərgi ilə tanış olublar.**

Sərgidə Milli Məclisin Sədri Sahibə Qafarova, xarici ölkələrin parlament rəhbərləri, müavinləri, deputatlar, beynəlxalq təşkilatların və xarici dövlətlərin diplomatik korpusunun təmsilçiləri iştirak ediblər.

Əvvəlcə qonaqlar görkəmli dövlət xadimi Heydər Əliyevin həyatının, siyasi fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən və simvolik olaraq, 100 fotodan ibarət fotosərgi ilə tanış olublar. Səkkiz bölümdən ibarət fotosərgidə ulu öndərin uşaqlıq və gənclik illərindən başlamış Dövlət təhlükəsizlik orqanlarında çalışdığı, Azərbaycana ilk dəfə rəhbərlik etdiyi, keçmiş SSRİ-nin rəhbərliyində təmsil olunduğu, həmçinin Naxçıvanda yaşadığı, Azərbaycan parlamentinin sədri olduğu və ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi dövrlərə dair fotolar öz əksini tapıb. Qonaqlara Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətləri, respublikamızın ən taleyüklü məqamlarında göstərdiyi siyasi müdrikliyi, müasir müstəqil Azərbaycanın quruculuğu yolunda həyata keçirdiyi nəhəng işlər barədə fotoların müşayiəti ilə məlumat verilib.

Sonra qonaqlar Milli Məclisin deputatı, Əməkdar rəssam Ülviyyə Həmzəyevanın ulu öndər Heydər Əliyevə həsr etdiyi və yeni üslubda çəkilmiş rəsm əsərləri ilə tanış olublar. Məlumat verilib ki, “Heydər Əliyev”, “Şuşa, sən azadsan!”, “Turan ruhu”, “Nuh tufanı” və digər rəsm əsərlərində simvolikadan, mifologiyadan və qədim Azərbaycan naxışlarından istifadə olunub.

Sərgidə nümayiş etdirilən eksponatlar qonaqlar tərəfindən maraqla qarşılanıb.

***

Sonra ölkəmizdə səfərdə olan parlament sədrləri ulu öndər Heydər Əliyevin Milli Məclisin inzibati binasındakı abidəsini ziyarət edib və xatirə şəkli çəkdiriblər.

***Ə.BƏDƏLOV, “Xalq qəzeti”***